*Əminə Cəfərova.Milli biblioqrafiyanın yaradılması tarixindən: elmi-nəzəri araşdırma. (Britaniya təcrübəsi əsasında) // Elmi əsərlər,2019,№1(8),yanvar-iyun, s.80-88.*

UOT 015(4/9)+ 015(410)

***Əminə Cəfərova,***
*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası,*
*Bakı şəhəri, Xaqani küç. 29*
*BDU-nun dissertantı*
e-mail: amina.c@anl.az

# MİLLİ BİBLİOQRAFİYANIN YARADILMASI TARİXİNDƏN: ELMİ-NƏZƏRİ ARAŞDIRMA (Britaniya təcrübəsi əsasında)

**Açar sözlər**: *cari milli biblioqrafiya, milli bibliorafik uçot, məcburi nüsxə, Britaniya milli biblioqrafiyası, elektron resursların qeydiyyatı, "Məcburi nüsxə haqqında" Qanun.*

Cari milli biblioqrafiya ölkədə nəşr edilən çap məhsullarına dair müfəssəl məlumat verir. Hər bir ölkənin sosial-siyasi, ictimai, elmi və mədəni inkişaf səviyyəsini izləmək üçün hər il çap edilən nəşrləri tədqiq etmək kifayətdir. Bu tədqiqatı real şəkildə həyata keçirmək üçün isə mütəxəssislərə cari milli biblioqrafiya nəşrləri xüsusilə yardımçı olur.

Bir sıra dünya ölkələrində cari milli biblioqrafiya nümunələri beynəlxalq standartlara uyğun olaraq yaradılır. Nəşriyyatların fəaliyyətində baş verən mövcud dəyişikliklər, çoxlu sayda elektron resursların və "dünya şəbəkəsi"nin (www) yaranması milli biblioqrafiyanın əhatə dairəsini dəyişdirdi və genişləndirdi.

Ölkədə milli biblioqrafik uçotun düzgün həyata keçirilməsi üçün məcburi nüsxələrin əldə edilməsi mexanizminin müəyyənləşdirilməsi vacibdir. Məcburi nüsxə dedikdə nəşriyyatlar, tipoqrafiyalar və çap işi ilə məşğul olan təşkilatların qanun və ya digər normativ aktlar əsasında milli kitabxana və digər kitabxanalara öz nəşrlərini pulsuz verməsi nəzərdə tutulur.

Tədqiqatlar göstərir ki, "milli biblioqrafiya" anlayışı elmi dövriyyəyə XIX əsrin ortalarında daxil olmuş, onun əsas istiqaməti olan cari milli biblioqrafiya yaranıb inkişaf etmişdir. Cari milli biblioqrafiya ilk dəfə Fransada yaranmışdır. 1825-ci ildə alman, 1829-cu ildə isveç, 1833-cu ildə şotland kitabları haqqında cari informasiya mənbələri yaranır. 1835-ci ildə İtaliyada, 1837-ci ildən İngiltərə və Fransada, 1871-ci ildə İsveçrədə, 1872-ci ildə ABŞ-da, 1875-ci ildə Belçikada, 1878-ci ildə Polşada, 1897-ci ildə Bolqarıstanda, 1934-cü ildə Türkiyədə, 1950-ci ildə İranda cari milli biblioqrafiya yaranmışdır [3,10].

XX əsrin əvvəllərində "milli biblioqrafiya"ya geniş tərif verilmişdir. 2015-ci ildə işıq üzü görmüş ilk Azərbaycan Kitabxana Ensiklopediyasında milli biblioqrafiya anlayışına belə bir tərif verilmişdir: "Milli biblioqrafiya- ölkənin tarixi inkişaf prosesində onun ərazisində yaranmış bütün sənədlər haqqında universal biblioqrafik məlumatın hazırlanmasını və fəaliyyətini təmin edən biblioqrafiyadır [1,425].

Qəmzə Hacıyeva "Xarici biblioqrafiya" dərsliyində milli biblioqrafiyaya belə tərif vermişdir: "Milli biblioqrafiya ölkənin tarixi inkişaf prosesində onun ərazisində yaranmış bütün sənədlər haqqında universal biblioqrafik məlumatın hazırlanmasını və fəaliyyətini təmin edən biblioqrafiyadır" [3,5].

Dövlət biblioqrafiyası (cari milli) biblioqrafiyanın elə bir növüdür ki, onun vəzifəsi ölkə ərazisində nəşr edilən bütün çap məhsullarının və digər sənəd növlərinin qeydiyyatını həyata keçirməkdən və bunun əsasında cari bibliorafik informasiyanın universal mənbələrini yaratmaqdan ibarətdir. Rus biblioqrafı Oleq Korşunov "Библиографоведение" kitabında milli biblioqrafiyanı belə təsvir etmişdir [6, 149].

MDB dövlətləri iştirakçılarının Kitabxana kodeksində göstərilmişdir ki, milli biblioqrafiya - elmin bütün sahələrini əhatə edən, həm ənənəvi, həm də qeyri-ənənəvi sənədlərin uçotu və yayılmasını təmin edən universal biblioqrafik informasiyadır [5].

İFLA YUNESKO-nun dəstəyi ilə ötən əsrin ortalarından bu günədək milli biblioqrafiyaya həsr olunmuş beş beynəlxalq tədbir keçirmiş və aşağıdakı tövsiyələr hazırlanmışdır:

1950-ci ildə "Biblioqrafik xidmətlərin təkmilləşdirilməsi" (Conference on the Improvement of Bibliographic Services) adlı beynəlxalq konfransda milli biblioqrafiyanın bütün sənəd tiplərinə tətbiq edilməsi təklif edilmişdir. Konfransın tövsiyələrinə əsasən ölkədə çapdan çıxan və satışda olan bütün kitabların, broşürlərin millli biblioqrafiyaya daxil edilməsi vacib hesab edilmişdir. Yalnız kitablar və çap məhsulları deyil, audio və video materialların milli biblioqrafiyaya daxil edilməsi də xüsusi vurğulanmışdır.

1977-ci ilə təsadüf etmiş "Milli biblioqrafiya"ya həsr olunmuş beynəlxalq konqresin (International Congress on National Bibliographies) materialları "Milli biblioqrafik təşkilatın və milli biblioqrafiyanın işlərinə dair təlimatlar" başlığı altında çap olunmuşdur. Bu vəsait milli biblioqrafiya üçün materialların seçilməsi meyarlarını müəyyənləşdirməklə yanaşı kataloqlaşdırma səviyyəsi və biblioqrafik qeydiyyat prosedurunun əsaslarına dair tövsiyələrdən ibarət idi.

1998-ci ildə keçirilmiş "Milli biblioqrafik xidmətlərin təşkili" (International Conference on National Bibliographic Services (ICNBS) 1998-2002) adlı beynəlxalq konfransın tövsiyələrində sürətlə inkişaf edən informasiya texnologiyalarının yeni imkanlar təklif etdiyi, həmçinin milli mətbuatın qorunması və onların biblioqrafik qeydiyyatı sistemində yeni tələblərin meydana çıxdığı göstərilmişdir [5,10-11].

2010 - Dəyişən kontekst – İFLA-nın İşçi Qrupunun "Rəqəmsal dövrdə Milli Biblioqrafiya üçün təlimatlar"ı (2010- A changing context – the IFLA Working Group on Guidelines for National Bibliographies in a Digital Age)

Elektron resursların yaratdığı problemlər yeni konseptual modelin ("Biblioqrafik Qeydlər üçün funksional tələblər") hazırlanmasına gətirib çıxardı. İşçi qrup milli biblioqrafiyanın bütün nəşrləri olmasa da, bütün sənəd növlərini əhatə etməsini, seçim meyarlarını müəyyən edərək dərc edilməsini, yeni standartların tətbiq

edilməsinin milli bibloqrafik agentliklərin öhdəsinə verilməsi məsələlərini tövsiyə etdi [13].

2012-ci ildə keçirilmiş Rəqəmsal əsrdə biblioqrafiya (Bibliography in a Digital Age) beynəlxalq konfransının məqsədi bu sahədə mövcud olan ən yaxşı təcrübəni bölüşmək idi [12].

Milli biblioqrafiyanın əhatə dairəsini müəyyənləşdirərkən qeyd edilir ki, -formatı, məzmunu, keyfiyyəti və daşıyıcı növündən (çap, audio-video materiallar, elektron resurslar) asılı olmayaraq ölkə ərazisində dərc olunan və gələcəkdə meydana gələ biləcək bütün sənəd növləri milli biblioqrafiyanın qeydiyyat sisteminə daxil olmalıdır.

Xarici ölkələrdə milli biblioqrafik işin təşkili sahəsində mövcud fəaliyyət mexanizmini öyrənmək məqsədilə Böyük Britaniya (İngiltərə) təcrübəsinə müraciət etdik. Böyük Britaniyada milli biblioqrafiyanın tarixinin tədqiqi onu göstərir ki, burada milli biblioqrafiyanın inkişafı üçün zəmin çox erkən meydana gəlmişdir. Belə ki, 1663-cü ildə qəbul olunmuş ilk məcburi nüsxə haqqında qanuna əsasən, çap edilən kitablar Kral Kitabxanasına, Bodlean kitabxanasına və Kembric Universiteti Kitabxanasına daxil olmalı idi. Lakin, cari milli biblioqrafiyanın yaranıb inkişaf etməsi kitab ticarəti ilə bağlı olmuşdur. Naşir və kitab ticarətçisi Sempson Lou ingilis milli biblioqrafiya tarixində yeni səhifə açmış, ingilis kitablarının cari biblioqrafik qeydinin əsasını qoymuşdur. Qeyd edək ki, Britaniyada 1476-cı ildə yaradılmış nəşriyyat ilk kitab çapına başlamış, 1621-ci ildə ilk qəzet, 1665-ci ildə isə ilk jurnal işıq üzü görmüşdür.

1838-ci ildən "İngilis kitab kataloqu" (English catalog of books ) adlanan illik, 1864-cü ildən isə çoxillik məlumatlar Böyük Britaniya Naşirlər Assosiasiyası tərəfindən dərc edilmiş və uzun müddət cari milli biblioqrafiya orqanlarının funksiyasını yerinə yetirmişdir.

Kitab ticarətçisi və naşir Cozef Uayteker 1858-ci ilin yanvarından "Kitab ticarətçisi" jurnalını, 1874-cü ildən isə "Cari ədəbiyyatın məlumat kataloqu"nu nəşr etdirir və burada Böyük Britaniyada çap edilən və nəşr ilindən asılı olmayaraq satışda olan kitablar haqqında məlumat əks olunurdu. 1965-ci ildən kataloqun adı dəyişdirilərək "Satışda olan Britaniya kitabları" adlanır və nəşrə illik hazırlanır. 1909-cu ildən həmin firma "Cari ədəbiyyat" adlı aylıq yeni jurnalın əsasını qoyur. 1924-cü ildən isə "Uaytekerin kumulyativ kitab siyhısı" nəşr olunur. XX əsrin ortalarına kimi kitabların cari qeydi yalnız satış üçün nəzərdə tutulan çap məhsulunu əks etdirirdi. XIX əsrdə ayrı-ayrı nəşriyyat firmalarının gücü ilə dövri mətbuatın da qeydinə başlanılır.

1947-ci ildə Böyük Britaniyanın Kitabxana Assosiasiyası Komitəsi cari biblioqrafik informasiyanın və mərkəzləşdirilmiş kataloqlaşdırmanın vəziyyətini tədqiq edib öyrənməyə başlayır. Sonralar bu komitə milli biblioqrafiya üzrə komitəyə çevrilir və ona bu işdə marağı olan kitabxanaların, kitab naşirləri və kitab ticarətçiləri assosiasiyalarının, Britaniya muzeyinin, Kral cəmiyyətinin və YUNESKO-nun Milli Komissiyasının nümayəndələri daxil olur. 1949-cu ilin iyul ayında ingilis qanunveri-

ciliyinə uyğun olaraq bu komitə Britaniya Milli Biblioqrafiya Şurası kimi qeydiyyatdan keçir, sonralar bura milli kitab cəmiyyətinin xüsusi kitabxanalar və informasiya büroları Assosiasiyasının (ASLIB), Milli Mərkəzi Kitabxananın, Müəlliflik hüququnun qeydiyyatı haqqında Qanuna (1911) əsasən, çap məhsulu alan (Britaniya muzeyindən başqa) dörd kitabxananın Birləşmiş Komitəsinin nümayəndələri də daxil edilirlər. Şuranın xüsusi komissiyası bir neçə il ərzində bir çox ölkələrin cari milli biblioqrafiya sahəsindəki təcrübəsini öyrənərək yeni nəşr üçün xüsusi metodika hazırlayırlar. Böyük Britaniyada cari milli biblioqrafiyanın inkişafına YUNESKO-nun və bu təşkilat tərəfindən keçirilən beynəlxalq müşavirələrin verdiyi tövsiyələrin böyük köməkliyi olmuşdur.

Böyük Britaniyada cari milli biblioqrafiyanın erkən yaranmasına və onun inkişafı üçün müvafiq şəraitin olmasına baxmayaraq məcburi nüsxə haqqında qanun cari milli biblioqrafiyanın tələblərinə uyğun icra olunmurdu. Kitabların qeydi bir neçə cari biblioqrafik orqanda aparılır, onların heç biri tam əhatə olunmur, biblioqrafik təsvir də çox qısa verilirdi. Vahid bir mərkəzin olmaması cari milli biblioqrafiyanın inkişafına öz mənfi təsirini göstərirdi.

İlk dəfə olaraq 1950-ci ildə Britaniya Muzeyi Kitabxanası Müəlliflik Hüququ Bürosuna daxil olan məcburi nüsxələr əsasında Böyük Britaniya və İrlandiyada çap olunan nəşrlərin həftəlik olaraq cari milli biblioqrafiyasını "Britaniya milli biblioqrafiyası" (British national bibliography, BNB) adı altında çap etdirməyə başlayır. Nəşrdə materiallar Düinin Onluq Təsnifatı əsasında qruplaşdırılmışdır.

Sonrakı illərdə kitablarla yanaşı digər sənəd tipləri və növlərinin də qeydiyyatı aparılmağa başlandı. 1957-ci ildən Britaniya Milli Biblioqrafiya Şurası not və musiqi ədəbiyyatı haqqında məlumat verən rüblük "Britaniya musiqi kataloqu"nu, Britaniya Filmlər İnstitutu 1963-cü ildən bütün növ filmlər haqqında məlumatı (o cümlədən bədii) özündə əks etdirən rüblük "Filmlərin Britaniya milli kataloqu"nu çap etdirir [3,25-26].

1972-ci ildə parlament tərəfindən "Kitabxana haqqında" Qanun qəbul edilir. 200 ildən artıq ölkənin qədim və milli kitabxanası olan Britaniya Muzeyi Kitabxanası, Milli Mərkəzi Kitabxana, Təbiətşünaslıq elmləri və ixtiralar üzrə milli mətbuat kitabxanası və Milli elmi-texniki kitabxana birləşərək Britaniya Kitabxanası adlanır və 1974-cü ildə Britaniya Milli Biblioqrafiya Şurası və Müəlliflik Hüququ Bürosu Britaniya Kitabxanasında birləşdirilir.

Mövcud əsasnaməyə görə kitabxana Britaniya Milli Biblioqrafiyası və digər göstəriciləri də nəşrə hazırlamalı idi. Bununla da, cari milli biblioqrafiya üzrə bütün nəşrlərin bir mərkəzdə cəmlənməsinə, onun inkişaf edib, daha da təkmilləşməsinə əlverişli şərait yaranmış olur.

Böyük Britaniyada cari milli biblioqrafiyanın inkişaf səviyyəsini 1950-ci ildən sonra iki dövrə bölürlər:

1. **1950-1970-ci illəri əhatə edən birinci dövr** - cari biblioqrafik informasiya sistemində milli biblioqrafiya orqanı olan "Britaniya milli biblioqrafiyası"nın əsas konsepsiyaların işlənməsi dövrü. Əvvəlcə biblioqrafiya mətbəə üsulu ilə çap olunur,

orada verilən informasiya 2-3 ay gecikir, kitab ticarəti firmalarının nəşri ilə rəqabət apara bilmirdi. 1955-ci ildən göstərici elektroqrafik üsulla nəşr olunmağa başlayır ki, bu da həm həftəlik buraxılışların, həm də digər nəşrlərin tamlığını və operativliyini təmin edirdi.

2. **1971-ci ildən sonrakı dövr.** Məhz bu dövrdə Britaniya milli biblioqrafiyasının hazırlanmasında elektron-hesablama texnikasından istifadə olunur. Bu, hələ XX əsrin 60-cı illərində ölkədə kitabxana işində gedən proseslərlə bağlı idi. Dörd iri kitabxananın bazası əsasında Britaniya Kitabxanasının təşkili ölkənin kitabxana sisteminin yenidən qurulmasına, onun mərkəzləşməsinə (xüsusilə kütləvi kitabxanaların) səbəb olmaqla yanaşı, avtomatlaşdırılmış informasiya sisteminin yaradılmasına da şərait yaradır. Beləliklə, kitabxanada müasir texniki vasitələrdən geniş istifadə olunurdu.

Elektron hesablama texnikasının tətbiqi biblioqrafik göstəricilərin tərtibi, biblioqrafik və kitabxana arayışlarının verilməsi, abonementdə oxucularla işin təşkili, KAA üzrə ədəbiyyatın qaytarılması proseslərinin təkmilləşdirilməsinə təsir göstərirdi. Bununla əlaqədar olaraq cari milli biblioqrafiyanın da köklü şəkildə yenidən qurulmasına ehtiyac yaranırdı. Beləliklə, Britaniya milli biblioqrafiyasının maşınla oxunan kataloqlaşdırma (BNB/MARC) formatı artıq 1970-ci ilə kimi yaradılmış və Böyük Britaniyada bütün informasiya sistemləri üçün vahid ümumdövlət standartının əsasını təşkil etmişdir.

Cari milli biblioqrafiya nəşrinin tərtibi prosesinin avtomatlaşdırılması ilə əlaqədar olaraq yeni ingilis-amerikan təsvir qaydalarından istifadə olunmağa başlanır. 1972-ci ildən isə Britaniya milli biblioqrafiyasında kitablar Beynəlxalq standart biblioqrafik təsvir qaydaları (ISBD) əsasında təsvir olunur. Böyük Britaniyada kitab nömrələrinin standartlaşdırılması üzrə təşkilat yaradılır. 1968-ci ildə dünyada ilk dəfə "Britaniya milli biblioqrafiyası"nda kitabların biblioqrafik təsvirinə standart kitab nömrəsi (ISBN) də daxil edilmişdir.

2000-ci ildə Böyük Britaniya parlamenti tərəfindən məcburi nüsxələr haqqında sənəddə qanuna dəyişiklik genişləndirilsə də, elektron vəsaitlərin milli biblioqrafiyaya daxil olunması üçün dövlətdən xüsusi ölçü götürülməsi tələb olunur.

Hazırda Britaniya kitabxanasının Milli biblioqrafik xidməti həftəlik olaraq kitab və ardı davam edən nəşrləri əhatə edən "Britaniya milli biblioqrafiyası"nı nəşr etdi-rir. Göstəricinin birinci hissəsində nəinki çapdan çıxmış nəşrlərin biblioqrafik təsviri, hətta CIP (Cataloguing in Publication) proqramına əsasən nəşrə hazırlanan sənədlər də göstəriciyə daxil edilir. Biblioqrafik yazılar DÜİ-nin Onluq təsnifatına əsasən yerləşdirilir.

İkinci hissədə müəllifin əlifba göstəricisi, başlıq və predmet rubrikaları yerləşdirilmişdir. Hər ayın sonuncu nömrəsində rəsmi qeydiyyatdan keçmiş bütün sənədlərin mövzu göstəricisi "Compass Index" yerləşdirilir.

İl ərzində 3 göstərici çap olunur. 1971-ci ildən etibarən "Britaniya milli biblioqrafiyası"nın hazırlanması tam avtomatlaşdırılmışdır ki, bu da Britaniya Kitabxanasının avtomatlaşdırılmış informasiya xidmətinin əsasını təşkil edir (British

Library Automated Information Service BLAISE). Bu nəinki Britaniya Kitabxanasının, həmçinin dünyanın iri kitabxanalarının məlumat bazalarında onlayn rejimdə axtarış aparmaq imkanı yaradır. BLAISE-LINE-da 15 milyondan çox biblioqrafik yazını özündə birləşdirən 21 məlumat bazası fəaliyyət göstərir.

Kitabxananın başlıca vəzifələrindən biri olan dünyada ingilis dilində dərc olunmuş materialların uçotunu aparmaqla yanaşı Avstraliya, Kanada, Yeni Zelandiya və ABŞ-ın kitabxanaları ilə maşınlaoxunan daşıyıcılar vasitəsilə biblioqrafik informasiya mübadiləsi də həyata keçirilir. Bunun əsasında bütün dünyada ingilis dilində çap olunan 500 min yeni ədəbiyyatı əhatə edən "İngilis dilində kitablar" göstəricisi mikrofişlərdə hazırlanır.

1975-ci ilə kimi çap olunmuş kitabların Baş kataloqu 2 variantda (ənənəvi və elektron) hazırlanınmışdır. Kitab şəklində çap edilmiş kataloq 5,7 mln. biblioqrafik yazını əhatə etməklə 360 cilddən ibarət olmuş, maşınlaoxunan elektron formada isə eyni informasiya 3 optik diskə yerləşdirilmişdir [9].

Britaniya Milli Biblioqrafiyasının tərkibinə aşağıdakı biblioqrafik göstəricilər daxildir:

- Britaniya milli biblioqrafiyası (The British national bibliography). 1950-ci ildən indiyədək. Britaniya kitabxanası tərəfindən ildə 3 sayı nəşr edilir: yanvar-aprel; may-avqust və illik . CD-ROM-da ayda 1 dəfə.
- Britaniya musiqi kataloqu (The British catalogue of music). 1957- ci ildən indiyədək. Britaniya kitabxanasının Müəllif hüquqları şöbəsi. Yarımillik göstərici.
- Çap olunmuş xəritələrin kataloqu (Catalogue of printed maps). 1978- ci ildən indiyədək..Britaniya kitabxanası. MAPS verilənlər bazası onlayn rejimdə.
- Dövlət nəşrləri (Government publications). 1922-ci ildən indiyədək. - Əlahəzrətin dəftərxana nəşriyyatı. Bunun əsasında "Chadwyck-Healey" şirkəti hər kvartal "Birləşmiş krallığın rəsmi nəşrlərinin kataloqu" nu CD-ROM-da dərc etdirir.
- Vilinqin mətbuat bələdçisi. 1874- cü ildən indiyədək. (Willing's press guide). Vilinqin London şirkəti. İllik.
- Britaniya kitabxanasında serial nəşrlər. 1981-ci ildən indiyədək. (Serials in the British Library) Rüblük nəşr.

Britaniya milli filmlərinin və video istehsallarının kataloqu. 1965-ci ildən indiyədək. (British national film and video catalogue) Britaniya film institutu. 1997-ci ildən Britaniya kitabxanası ilə birgə [14].

1998-ci ildən Britaniya kitabxanası kitab ticarəti şəbəkəsinə daxil olmayan "boz ədəbiyyat" (*grey literature*) adlanan nəşrlərin qeydiyyatı ilə məşğul olur. "Boz ədəbiyyat" məhz elmi tədqiqat əsərləri - elmi məruzələr, dissertasiyalar, elmi tədqiqat institutlarının və ictimai təşkilatların nəşrlərini və s. əhatə edir. Hazırda bu sənəd şəbəkəsinin genişləndirilməsi ilə bağlı məsələlər nəzərdən keçirilir.

Ənənəvi materialları milli kitabxananın və ya milli biblioqrafiya agentliklərinin fondlarından əldə etmək olur. Elektron resurslar barədə isə belə bir sual meydana çıxır: əgər elektron resurs milli biblioqrafiya agentliyi və ya cari milli biblioqrafiya

ilə məşğul olan təşkilat tərəfindən arxivləşmirsə, onu milli biblioqrafiya nəşrlərinə daxil etməyə dəyərmi? Gələcəkdə nə vaxtsa xidmət göstərməmək ehtimalı olan internet linkləri, veb saytları və digər materialları milli biblioqrafiya nəşrlərinə daxil etmək məsuliyyətli addımdırmı?

Sualı cavablandırmaq üçün 1 neçə sənədə müraciət edək: 1989-cu il iyunun 9-da qəbul edilib, 1990-cı il iyulun 1-də qüvvəyə minmiş Norveçin "Məcburi nüsxə haqqında Qanunu"na elektron nəşrlər, onlayn nəşrlər də daxil edilmişdir. Bu qanun çap məhsulları (məs.; kitab, dövri mətbuat, açıqca və şəkil), səsyazma (film, video yazı, radio yazı, televeriliş), həm də elektron nəşrləri əhatə edir. 2005-ci ildən etibarən bütün domenlərin qeydiyyatı aparılır.

Finlandiyanın "Məcburi nüsxə haqqında Qanunu" 1981-ci ildə qəbul olunmuş, elə həmin il qanun qüvvəyə minmişdir. Qanunda elektron resurslar məcburi nüsxələrə daxil edilməsə də, bu gün Finlandiyada elektron sənədlərin, o cümlədən radio və televiziya proqramlarının biblioqrafik uçotu aparılır [8].

"Litva Respublikası Hökumətinin Qanunu" isə 22 noyabr 1996-cı il tarixində qəbul olunmuşdur. 11 noyabr 2006-cı ildə qanuna yenidən baxılmışdır. Qanun kitabları, dövri mətbuatı, not nəşrlərini, mikroformaları, audiovizual, kartoqrafik, təsviri sənət, elektron nəşrləri, həmçinin Brayl şrifti ilə çap olunan materialları əhatə edir. Litva ilk Avropa ölkələrindəndir ki, 2002-ci ildən etibarən domenlərin və veb sənədlərin biblioqrafik uçotunu aparmağa başlamışdır.

Beləliklə, apardığımız araşdırmalar göstərir ki, Böyük Britaniyada milli biblioqrafiya əsaslı şəkildə qurulmuşdur. Çap məhsulundan tutmuş, xəritələrin, milli film və videoların kataloqlarının qeydiyyatının aparılması, vahid uçot sisteminin düzgün qurulması, bütün bu proseslərin avtomatlaşdırılması təqdirəlayiq haldır.

Xarici ölkə təcrübələrinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, ölkə ərazisində dərc edilən və daşıyıcı tipindən asılı olmayaraq yayımlanan bütün sənədlərin qeydiyyatının aparılması mədəni sərvətlərin qorunmasına zəmin yaradacaqdır. Burada əhəmiyyət kəsb edən məsələ təkcə çap məhsulunun qeydiyyatı deyil, eyni zamanda dövrün tarixi, elmi, mədəni, iqtisadi, siyasi həyatının, ayrı-ayrı mərhələlərdə baş verən mühüm hadisələrin, bir sözlə bir ölkənin, millətin sosio-mədəni inkişafının təhlili və tədqiqidir.

**Ədəbiyyat:**

1. Azərbaycan Kitabxana Ensiklopediyası.- Bakı: [M. F. Axundzadə adına Milli Kitabxana], 2015. - 630 s.
2. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970): dərs vəsaiti. – Bakı,1978. - 77 s.
3. Hacıyeva Q. Xarici biblioqrafiya. - Bakı, 2008.-128 s.
4. Hacıyeva Q. Məcburi nüsxə cari milli biblioqrafiyanın əsas bazası kimi // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2007. - № 2.- S. 87-92.

5. Национальная библиография в электронную эру: руководство и новые направления развития. Серия публикаций ИФЛА по библиографическому учету. Т. 39.- Мюнхен, 2009, 132 с.
6. Коршунов О.П. Библиографоведение. Санкт-Петербург, 2014, 288 с.
7. http://stud24.ru/journalism/bibliografiya-velikobritanii/369366-1164081
8. https://archive.ifla.org/IV/ifla71/papers/166r_trans-Knutsen.pdf
9. http://www.hi-edu.ru/e-books/xbook021/01/part-003.htm#i186
10. http://hi-edu.ru/e-books/xbook021/01/part-002.htm#i65
11. http://docs.cntd.ru/document/901898818
12. https://www.ifla.org/DE/node/7677
13. https://www.ifla.org/DE/node/7676
14. http://www.hi-edu.ru/e-books/xbook212/01/part-004.htm

***Амина Джафарова***

## ИЗ ИСТОРИИ СОЗДАНИЯ НАЦИОНАЛЬНОЙ БИБЛИОГРАФИИ: НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ
### (на основе британского опыта)

**Резюме**

Статья посвящена созданию текущей национальной библиографии, определению и расширению ее охвата, а также важности обязательных копий. Была обращена к мировой практике и исследовалось история Британской национальной библиографии, а также были обсуждены пособия, которые играют особую роль в национальной библиографии. Говорится о вопросах, связанные с включением современных информационных носителей, электронных и аудиовизуальных публикаций в состав национальные библиографические издания.

**Ключевые слова:** *текущая национальная библиография, национальный библиографический учет, обязательные копии, Британская национальная библиография, регистрация электронных ресурсов, Закон об обязательном экземпляре.*

***Amina Jafarova***

## FROM THE HISTORY OF THE CREATION OF THE NATIONAL BIBLIOGRAPHY:SCIENTIFIC-THEORETICAL RESEARCH
### (based on British experience)

**Summary**

The article is devoted to creation of the current national bibliography, defining and expanding its scope, as well as the importance of the mandatory copies. Using

the world practice the history of the British National Bibliography was investigated, and the bibliographic indexes were also discussed that play a special role in the national bibliography. It's told about issues related to the inclusion of modern information carriers, electronic and audiovisual publications to the content of the national bibliographic editions.

**Keywords**: *current national bibliography, national bibliographic registration, mandatory copies, British National Bibliography, registration of electronic resources, Law on mandatory copies.*

*Redaksiyaya daxil olma tarixi: 29.03.2019*
*Çapa qəbul olunma tarixi: 30.04.2019*

*Pedaqogika üzrə fəlsəfə doktoru,dosent* ***Nadir İsmayilov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*